# QULİYEV İNQİLAB ÇİNGİZ OĞLU



İnqilab Quliyev 1983-cü ildə Kəlbəcərdə anadan olmuşdur. 8 illik məktəbi Beyləqanda bitirəndən sonra Naxçıvanskı adına Hərbi Liseydə, daha sonra Heydər Əliyev adına Hərbi Akademiyada təhsil alıb. Hərbin topçuluq sirlərini öyrənmişdi, artilleriya komandiri vəzifəsinə təyin olunmuşdu. Kapitan İnqilab Quliyev 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olmuşdur. Aprelin 5-i isə İnqilab Quliyev Gəncə şəhərinin Şəhidlər Xiyabanında son mənzilə yola salınmışdır. Dəfn mərasiminə minlərlə şəhər sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatılmışdır. İnqilab Quliyev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilmişdir. Ailəli idi, iki övladı yadigar qalıb. ASAN Könüllüləri Təşkilatı, Gəncə regional "ASAN xidmət” mərkəzi və “ARB Kəpəz” telekanalının birgə əməkdaşlığı, eyni zamanda Gəncə və Beyləqan Rayon İcra Hakimiyyətlərinin dəstəyi ilə kapitan İnqilab Quliyevə həsr olunmuş "4 APREL" sənədli film çəkilib.